1_Layout 1 27.09.2019 12:26 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 19 (560)

1 oktyabr 2019-cu il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri ilə Azərbaycan regionun mərkəzi qovşağına çevrilib

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Baxşəliyevin "Yollar qısalır, xərc azalır, gəlir artır" başlıqlı məqaləsinin ictimai aktuallığını nəzərə alaraq, ixtisarla sizlərə təqdim edirik.**



Əlverişli coğrafi mövqeyindən yararlanaraq mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevrilən Azərbaycan Cənubi Qafqazın geoiqtisadi, logistik mərkəzi kimi tanınır. İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan ölkəmiz müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir.

Əlbəttə ki, müxtəlif ölkələri birləşdirən nəqliyyat layihəsinin təməlində geosiyasət dayanır və bu layihələr siyasi vəziyyətə təsir edir, sabitliyin təminatına töhfə verir. Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan yolun üzərində yerləşən Azərbaycan bu imkanından istifadə etməklə qitələri və ölkələri birləşdirir.

Bütün bunlar onu deməyə əsas verir ki, artıq nəqliyyat-logistika aspektlərində Azərbaycan regionun mərkəzi qovşağına çevrilib. Ölkəmizin ərazisindən keçən "Şərq-Qərb", "Şimal-Cənub" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizləri Azərbaycanın logistik mərkəzə çevrilməsi üçün real imkanlar yaradır.

Azərbaycanın Avrasiyanın əhəmiyyətli nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsinə yönəlmiş irimiqyaslı infrastruktur layihələri, ən yeni texnoloji standartlar səviyyəsində Gəmiqayırma Zavodunun istifadəyə verilməsi, 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı və 2018-ci ildə Xəzərdə ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi son illər Azərbaycanda bu istiqamətdə məqsədyönlü strateji planın uğurla reallaşdırılmasının bariz nümunələridir.

Azərbaycan Prezidentinin təşəbbüsü və prinsipial mövqeyi sayəsində tikilən və əhəmiyyətinə görə "Dəmir İpək yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi Asiya və Avropa dəmir yollarının inteqrasiyasına öz töhfəsini verməkdədir. Bu gün Çindən Avropaya yüklərin 34 günə deyil, 12-15 gün ərzində çatdırılması bu dəmir yolunun bütün tərəflərə nə qədər iqtisadi dividendlər qazandırdığını bir daha təsdiqləyir.

2017-ci ildə fəaliyyətə başlayan və tarixi İpək yolunun üzərində yerləşən Abşeron Logistika Mərkəzinin sutkalıq yükaşırma gücü 30 min ton təşkil edir. Bu da ildə təqribən 11 milyon ton yükə bərabərdir. Logistika mərkəzi həm Azərbaycanın, həm də Qafqazın coğrafi logistik inkişafına, ölkəmizin iqtisadi tərəqqisinə böyük töhfə verir.

Göründüyü kimi, İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə də etibarlı təminat verir.

3 il öncə hazırlanan logistika və ticarətin inkişafına dair strateji yol xəritəsində bütün bunların reallaşması üçün hədəflər müəyyənləşdirilib. "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" 2020-2025-ci illər və 2025-ci ildən sonrakı dövr üçün qısa, orta və uzunmüddətli perspektiv istiqamətləri müəyyən edir. Sənəddə logistika üzrə inkişaf perspektivini özündə əks etdirən strateji məqsəd və hədəflər konkret ifadəsini tapıb. Eyni zamanda, həmin məqsəd və hədəflərə çatmaq üçün prioritetlər də müəyyənləşdirilib.

Nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi qarşıya qoyulan başlıca məqsəddir. Onu da əlavə edək ki, bu gün Azərbaycan tranzit-logistik imkanlarının daha da genişləndirilməsinə, dəmir yolu infrastrukturunun müasirləşdirilməsinə lazımi sərmayə yatırır.

Cənab İlham Əliyev bu istiqamətdə reallaşdırılan layihələri dəyərləndirərkən bildirib: "Coğrafi yerləşməmizdən istifadə edərək biz ölkəmizin infrastruktur və nəqliyyat sektoruna sərmayə yatırdıq və bununla da Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirdik. Bizim ölkə tarixi İpək yolu üzərində yerləşir. Müasir infrastrukturun yaradılması bizim əsas hədəflərimizdəndir. Biz əsas sərmayəni yolların, avtomagistralların və hava limanlarının inşasına yönəldirik.

"Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Azərbaycan hər iki layihədə fəal iştirak edir və bu istiqamətdə bir sıra təşəbbüs irəli sürüb".

Ölkənin tranzit potensialının reallaşdırılması Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətində mühüm yer tutur. Son 16 ildə etibarlı nəqliyyat dəhlizinin yaradılması istiqamətində həyata keçirilən layihələrə nəzər yetirsək, bunu aydın şəkildə görərik.

Əlverişli geostrateji mövqeyə malik olan Azərbaycanın tranzit daşımaları sahəsində potensialından daha geniş və səmərəli istifadə edilməsi məqsədilə Prezident İlham Əliyevin 21 oktyabr 2015-ci il tarixli fərmanı ilə yaradılan Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası tərəfindən ölkəmizin ərazisindən keçən tranzit dəhlizlərin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, yükdaşımaların keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirilir.

Əgər diqqət etsək görərik ki, artıq Azərbaycan nəqliyyat sahəsi ilə bağlı çox yaxşı nəticələr əldə edib. Prezident İlham Əliyevin "Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizi"nin uğurlu fəaliyyəti üçün keçirdiyi görüşlər, imzaladığı sazişlər ölkəmizə həm siyasi, həm də iqtisadi dividendlər qazandırır.

Bir sözlə, Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri, həyata keçirdiyi siyasət Azərbaycanın qarşıdakı illərdə də dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradır. Əminliklə demək olar ki, dövlət başçısının Azərbaycanın nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirdiyi dövlət siyasəti və qlobal miqyaslı təşəbbüsləri ölkəmizin sosial-iqtisadi inkişafına əsaslı töhfə verir.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Sentyabrın 16-da Daxili İşlər Nazirliyində "Mülkiyyət əleyhinə olan cinayətlərin və qeyri-aşkar şəraitdə baş vermiş xırda talamaların qarşısının alınması və açılması"nın, həmçinin "Polis sahə rəisləri və inspektorları tərəfindən inzibati qanunvericiliyin tətbiqi sahəsində görülmüş işlər"in vəziyyətinə və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.***



Daxili İşlər Naziri, general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan məsələlərin aktuallığını, daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı mühüm istiqamətləri əhatə etdiyini bildirib. O, müvafiq sahələrdə əməliyyat-xidməti fəaliyyətin məqsədyönlü təşkilinin insan hüquq və azadlıqlarının, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin etibarlı qorunması, bütövlükdə vətəndaş məmnunluğunun təmin edilməsi baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Gündəlikdəki məsələlərlə bağlı Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov və Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Oqtay Kərimov məruzə ilə çıxış edərək əldə edilmiş nəticələrdən, xidməti fəaliyyətdə yol verilmiş nöqsanlardan və onların aradan qaldırılması üçün görüləcək işlərdən danışıblar.

Məruzələr ətrafında ayrı-ayrı şəhər, rayon polis orqanlarının rəisləri çıxış edib.

İclasa yekun vuran nazir V.Eyvazov cari ilin 8 ayında asayişin və ictimai təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələrin bütövlükdə layiqincə yerinə yetirildiyini, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının qorunmasında əldə olunmuş müsbət nəticələrin hesabat dövründə də qorunub-saxlanıldığını diqqətə çatdırıb. O, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə qəsdən adam öldürmələrin 13,8, adam öldürməyə cəhdlərin 18,5, qəsdən sağlamlığa ağır zərərvurmaların 1,8, odlu silahın tətbiqi ilə törədilən cinayətlərin 7,5, mülkiyyət əleyhinə olan cinayətlərin 12,2, o cümlədən quldurluqların 7, hədə-qorxu ilə tələb etmələrin 19, dələduzluqların 27 faiz azaldığını, habelə cinayətlərin açılmasının yüksək olduğunu qeyd edib.

Daxili İşlər Naziri gündəlikdəki məsələlər üzrə görülən işlərin ümumən qənaətbəxş olduğunu, eyni zamanda, bəzi ərazi orqanlarında müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu diqqətə çatdıraraq onların aradan qaldırılması üçün adekvat tədbirlərin görülməsini tələb edib.

İlk növbədə cari ilin ötən dövründə bir tona yaxın narkotik vasitənin qanunsuz dövriyyədən çıxarıldığını bildirən nazir, bu sahədə fəaliyyətin nəticələrinin tam qənaətbəxş olmadığını, antinarkotik təbliğatın gənclər arasında, təhsil müəssisələrində, kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə gücləndirilməsinin vacibliyi, xüsusən cinayətkar qruplaşmaların yeni metodlardan - internet informasiya resurslarından istifadə etməklə narkotiklərin satışını həyata keçirmək cəhdlərinin qarşısının alınması üzrə icrası zəruri olan tədbirlər barədə konkret tapşırıqlar verib.

Ölkə Prezidentinin qarşıya qoyduğu əsas vəzifələrdən birinin də vətəndaş məmnunluğunun təmin edilməsi olduğunu xatırladan nazir bütün müraciətlərə operativ baxılıb qanuni qərarların qəbul edilməsinin, cinayətlər nəticəsində zərərçəkmiş şəxslərə dəymiş ziyanın istintaq və təhqiqat prosesində ödətdirilməsinin, polisin səlahiyyətinə aid məsələlərlə əlaqədar göstərilən xidmətlərin nümunəvi təmin edilməsinin hər bir orqan rəisinin gündəlik nəzarətində saxlanılmasının vacibliyini nəzərə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının şəxsi heyəti qanunvericilikdə nəzərdə tutulan məsul vəzifələrin və qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gələcək, ölkədə sabitliyin və əminamanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün bundan sonra da qüvvə və bacarığını əsirgəməyəcək, daha böyük əzmlə çalışacaqdır.

2_Layout 1 27.09.2019 12:31 Page 1



# BAŞ İDARƏDƏ QƏBUL



**Sentyabrın 17-də Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların Baş İdarəsində Pakistan İslam Respublikasının Azərbaycan Respublikasındakı Hərbi Attaşesi polkovnik Nadem Yaqub Çodrini qəbul edib.**

Qonağı səmimi salamlayan general-leytenant Ş.Məmmədov Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasındakı münasibətlərin dərin tarixi köklərə malik olduğunu bildirərək, qardaş Pakistanın Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu diqqətə çatdırıb. O, hazırda ölkələrimiz arasında mövcud olan çoxşaxəli əlaqələrin yüksək inkişafını vurğulayaraq, Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında hərbi əməkdaşlıq münasibətlərinin də uğurla inkişaf etməsindən danışıb.

Ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın mövcudluğunu müsbət hal kimi qiymətləndirən Daxili Qoşunların Komandanı, Pakistan İslam Respublikasının Hərbi Attaşeliyi ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında son illərdə yaranmış qarşılıqlı əməkdaşlıq münasibətlərinin bundan sonra da müvəffəqiyyətlə davam edəcəyinə əminliyini ifadə edib.

Səmimi qəbul üçün təşəkkürünü bildirən polkovnik N.Y.Çodri ikitərəfli münasibətlərin ölkələrin gələcək inkişafına böyük təkan verəcəyini vurğulayıb. Qonaq, öz növbəsində, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Pakistan İslam Respublikasının bir sıra qurumları arasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi üçün lazımi dəstək verəcəyini bildirib.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə qeyd olunub ki, iki ölkənin müvafiq qurumları arasında səmimi dostluq və hərbi əməkdaşlıq bundan sonra da uğurla davam edəcək.

Görüşün sonunda xatirə şəkli çəkdirilib.

**Beynəlxalq hərbi əməkdaşlıq şöbəsi**

# Daxili Qoşunların Ali Hərbi Məktəbində kursantların andiçmə mərasimi keçirilib



***2019-cu ildə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olunan kursantların sentyabrın 14-də təntənəli andiçmə mərasimi keçirilib. Mərasimdə kursant valideynləri iştirak ediblər.***

Tədbir Ali Hərbi Məktəbin Döyüş Bayrağının sıra meydanına gətirilməsi ilə başlayıb.

Azərbaycan xalqının Milli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi Orkestrinin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov çıxış edərək Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun kursantlara andiçmə münasibətilə təbrik və tövsiyələrini çatdırıb. Daha sonra hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına sədaqət andı içən kursantların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinin tələblərini xatırladıb.

Bildirilib ki, Daxili Qoşunların bütün şəxsi heyəti kimi, bu gün sıralarımıza daxil olan kursantlar da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırığı layiqincə yerinə yetirəcək, Daxili Qoşunların sıralarının möhkəmlənməsi üçün səy göstərəcək, dövlət və dövlətçiliyimizin daha da gücləndirilməsi naminə öz fədakar xidmətlərini əsirgəməyəcəklər.

Daha sonra Ali Hərbi Məktəbə yeni qəbul olunmuş kursantlar hərbi and içərək, Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacaqları, dövlətimizin mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqları, bundan ötrü qanlarını və canlarını əsirgəməyəcəkləri barədə söz veriblər.

Kursantlar adından çıxış edən Cabbar Haqverdiyev müqəddəs bayrağa əl basaraq and içdiklərini, zabit adına hər zaman layiq olmağa çalışacaqlarını, hərb işini vicdanla öyrənəcəklərini, hərbi ənənələri şərəflə davam və inkişaf etdirəcəklərini, üzərilərinə düşən şərəfli və məsul vəzifələri layiqincə yerinə yetirəcəklərini, onlara olan etimadı hər zaman doğruldacaqlarını ifadə edib.

Valideynlər adından çıxış edən Hamlet Rzazadə isə bütün kursantları, həmçinin, valideynləri təbrik edib, onları bu müqəddəs və şərəfli yolda hər bir kursanta dəstək olmağa çağırıb. Kursantlarla yanaşı, hər bir valideynin də Vətənin müsəlləh əsgəri kimi Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin verdiyi bütün əmr və göstərişləri layiqincə yerinə yetirməyə hazır olduqlarını nəzərə çatdırıb.

Tədbir şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# 16076 SAYLI HƏRBİ HİSSƏ XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİ İLƏ ÖNDƏDİR

Mühüm dövlət obyektlərinin mühafizəsini təmin edən Daxili Qoşunların 16076 saylı hissəsinin şəxsi heyəti qarşıya qoyulmuş tapşırıqları keyfiyyətlə yerinə yetirir. Bu istiqamətdə həyata keçirilən tədbirlər hissə komandanlığı tərəfindən daim diqqət mərkəzində saxlanılır.



Xidməti tapşırıqla hərbi hissədə olarkən bir daha bunun əyani şahidi oldum. Hissə komandiri polkovnik-leytenant Vaqif Umudəliyev əldə olunan müvəffəqiyyətin arxasında yüksək döyüş hazırlığının, mehriban, sağlam kollektivin, möhkəm hərbi intizamın, eyni zamanda





məqsədyönlü fəaliyyətin dayandığını bildirdi. Qeyd etdi ki, ötən müddət ərzində Daxili Qoşunların Komandanlığı tərəfindən verilən əmrlərin, direktivlərin, göstərişlərin, habelə təlimatların tələbləri şəxsi heyət tərəfindən dərindən öyrənilib, aidiyyəti üzrə xidmət və bölmələr qarşısında tapşırıqlar qoyulub. Verilən hər bir tapşırığın icrası, eləcə də nəticəsi hissə komandanlığı tərəfindən daima ciddi nəzarətdə saxlanılıb.

Onun sözlərinə görə, hərbi qulluqçular öz funksional vəzifələrinə məsuliyyətlə yanaşaraq, şəxsi nümunə göstərib və qarşıya qoyulmuş bütün növ tapşırıqları uğurla icra ediblər. Polkovnik-leytenant V.Umudəliyev onu da vurğuladı ki, diqqət yetirilən əsas məsələlərdən biri də şəxsi heyətdə ruh yüsəkliyinin, mənəvi-psixoloji durumun daha da artırılması olub.

Gündəlik olaraq döyüş xidmətinə cəlb edilən hərbi qulluqçuların peşəkar hazırlığından da söz açan komandir hərbi hissənin nizam-intizamı ilə fərqlənən bölükləri arasında baş leytenant Orxan Mirzəyevin komandiri olduğu mühafizə bölüyünün xidmətini xüsusilə vurğuladı. O, bölüyün hərbi hissədə ardıcıl olaraq bir neçə dəfə birinciliyi qoruyub saxlamasında bölük komandirinin böyük zəhməti olduğunu da qeyd etdi.

Adıçəkilən mühafizə bölüyünün komandiri baş leytenant O.Mirzəyevlə söhbət aparıb, xidmətə cəlb olunan şəxsi heyətin hazırlanması, onlarda ayıq-sayıqlıq kimi keyfiyyətlərin formalaşması üçün görülən işlərlə bağlı məlumat əldə etdim.

İlk olaraq, qeyd edim ki, qarovula təyin olunmuş şəxsi heyətin hazırlanmasında, onlarla təlimat məşğələlərinin keçirilməsində yaxından iştirak edən baş leytenant O.Mirzəyev eyni zamanda bölükdə daxili qayda-qanuna və intizama riayət edilməsini ciddi nəzarətdə saxlayır.

Xidmətin Azərbaycan Respublikasının Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil olunduğunu vurğulayan komandir xidmətə nizam-intizamı, təlim-tərbiyəsi ilə fərqlənən, sağlamlıq durumu qənaətbəxş olan hərbi qulluqçuların cəlb olunduğunu dedi. Bildirdi ki, təsdiq olunmuş plana əsasən, hərbi qulluqçularla gündəlik olaraq, döyüş, ictimai-siyasi, atəş hazırlığı üzrə məşğələlər keçirilir. Məşğələlərdə şəxsi heyətə nəzəri biliklər aşılanır. Onlarda əzmkarlıq, dözümlülük kimi keyfiyyətlərin formalaşdığını nəzərə çatdıran bölük komandiri söylədi ki, şəxsi heyətlə fiziki hazırlıq məşğələlərinə xüsusilə önəm verilir.

Bundan əlavə, məşğələlərdə silahların, döyüş texnikasının qorunub saxlanması, onlardan düzgün istifadə edilməsi, həmçinin, təhlükəsizlik qaydalarına ciddi riayət olunması mütəmadi olaraq şəxsi heyətə çatdırılır. Məşğələlərdən öncə silahların, döyüş texnikasının və digər texnikanın hazırlığı, təlimdən qayıtdıqdan sonra onların mövcudluğu və sazlığı yoxlanılır. Xidmətə cəlb olunan bölüyün şəxsi heyəti ilə məşğələlər keçirilir. Burada şəxsi heyət tərəfindən bir daha vəzifə borcları təkrarlanır, Daxili Qoşunların taktikası üzrə normativlər yerinə yetirilir, eyni zamanda xidmətin məsuliyyəti izah edilir.

Xidmətə cəlb edilməmişdən öncə bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçularla təlimat keçirilir, Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin maddələri onlara çatdırılır. Ümumiyyətlə, xidmətə cəlb edilməmişdən bir gün öncə hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Bununla yanaşı, hərbi hissənin tərbiyə işləri üzrə bölməsində təlimatçı-psixoloq baş leytenant Zərifə Rzaquliyeva da fərdi qaydada xidmətə cəlb olunan şəxsi heyətlə söhbət aparır.

Aparılan söhbətlərin olduqca əhəmiyyətli olduğunu qeyd edən bölük komandiri bu zaman problemi olan hərbi qulluqçuların aşkarlanaraq xidmətdən dərhal kənarlaşdırıldıqlarını diqqətə çatdırdı. Şəxsi heyətlə yaxından maraqlanan, onların qayğısına qalan komandir tabeçiliyində olan hərbi qulluqçuların istirahətinin və asudə vaxtlarının səmərəli, eyni zamanda keyfiyyətlə təmin olunduğunu da dedi.








**Bir sözlə, hərbi hissənin mühafizə bölüyünün şəxsi heyəti hər zaman nümunəvi xidməti və sayıqlığı ilə seçilir və qəflətən qarşıya çıxan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinə hər zaman hazırdır.**

**baş leytenant Xədicə Hacızadə**

3_Layout 1 27.09.2019 12:36 Page 1



# “Vətənimizin zəngin və şanlı tarixilə qürur duyuruq!”

Daxili Qoşunların hissə və bölmələrində keçirilən döyüş təlimilə yanaşı, şəxsi heyətin əsl vətəndaş kimi formalaşması, eləcə də vətənpərvər ruhda tərbiyə edilməsi üçün müxtəlif biliklərə sahib olması vacib şərtdir.

Bu baxımdan, digər hərbi hissələrimizdə olduğu kimi, 16077 saylı hərbi hissədə də şəxsi heyətin xidmət apardığı rayonun muzey və tarixi abidələri ilə tanış olması üçün gəzintilər təşkil olunur. Sözsüz ki, bu kimi tədbirlər hərbi qulluqçuların asudə vaxtlarının səmərəli keçməsi baxımından da mühüm rol oynayır.





Vətənimizin qədim tarixini bilmək, sözsüz ki, hər bir vətəndaş kimi, əsgərin də mənəvi borcudur. Bu baxımdan onlara xidmət etdikləri ərazilərin keçmişi, adət-ənənələri və mədəniyyəti ilə yaxından tanış olmaları üçün hissənin komandanlığı tərəfindən hər cür şərait yaradılır.

Hər zaman nümunəvi xidməti ilə fərqlənən komendant bölüyünün müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının gəzintisi üçün ayrılmış avtobusun ilk dayanacağı da məhz Bərdə Tarix Diyarşünaslıq Muzeyi oldu.

Məlumat üçün qeyd edək ki, hazırda muzeydə Bərdənin qədim tarixini əks etdirən 3102 eksponat qorunub saxlanılmaqdadır. Burada quraşdırılmış və xüsusi incəliklə hazırlanmış qədim şəhərin VIII-IX əsrlərə aid maketi isə muzeyə təşrif buyuran ziyarətçilərin diqqətini özünə çəkir. Bundan əlavə, arxeoloji qazıntılar zamanı tapılmış və müxtəlif dövrlərə aid əmək alətləri, silah nümunələri və digər sənətkarlıq məmulatları Bərdənin zəngin tarixi barədə insanda müfəssəl təsəvvür yaradır.

Sonra hərbi qulluqçuları aparan avtobus yerli əhali arasında “Nüşabə qalası” kimi tanınan Bərdə türbəsinə doğru istiqamət aldı. Əsgərlərə məlumat verildi ki, 1322-ci ildə inşa olunmuş bu türbənin kitabəsində Memar Əcəminin şagirdi olmuş Əhməd ibn Əyyub əl Hafiz Naxçıvaninin adı yazılmışdır. Türbənin gövdəsində naxış şəklində həkk olunmuş “Allah” kəlməsi 200 dəfə təkrar olunduğundan, bu abidəyə həm də “Allah-Allah” türbəsi deyilir.

Hərbi hissəyə qayıdarkən əsgərlərdən gəzintilə bağlı təəssüratlarını öyrənmək qərarına gəldim. Hərbi qulluqçuların ümumi mövqeyi birmənalı olaraq müsbət olsa da, əsgərlərdən Cavid Bünyatovun və Ağabəy Xəlilovun fikirləri daha maraqlı idi.

Bakı Mühəndislik Universitetinin məzunu olan əsgər C.Bünyatov “Riyaziyyat və informatika müəllimliyi” ixtisası üzrə ali təhsil alıb. O, Bakı, Gəncə və Şəkinin bir sıra muzeylərində olsa da, xidmət etdiyi bu rayonun muzey və tarixi abidələrilə ilk dəfə tanış olduğunu deyir: “Hələ orta məktəbdə oxuyarkən, keçirilən “Azərbaycan tarixi” fənnindən Bərdənin qədim tarixə malik və maddi mədəniyyət abidələri ilə zəngin rayonlardan biri olduğunu öyrənmişdik. Şəhəri və tarixi məkanları görmək baxımından gəzintimiz daha maraqlı oldu. Bu baxımdan qeyd edə bilərəm ki, tarixi qaynaqlarda “Nüşabə yurdu”, Qafqaz Albaniyasının ikinci paytaxtı, “Arranın anası” kimi qeyd olunan Bərdə, bu gün də milli adət-ənənələrimizi və milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaqla müasirləşir, digər şəhər və rayonlarımız kimi inkişaf və tərəqqi dövrünü yaşayır”.

Azərbaycan Texniki Universitetinin məzunu olan əsgər Ağabəy Xəlilov isə bu kimi tədbirlərin tez-tez keçirilməsinin əsgərlərin dünyagörüşünün müsbət məcrada formalaşması baxımından faydalı olduğunu düşünür: “Gəzintimiz çox maraqlı və yaddaqalan oldu. Xidmət etdiyimiz bölgənin, ümumilikdə, Vətənimizin hər qarışının tarixini bilmək əsgərlər üçün ancaq faydalı ola bilər. Düşünürəm ki, ulu əcdadlarımızdan bizlərə miras qalmış tarixi abidələrimizi qoruyaraq, gələcək nəsillərə çatdırmaq hər birimizin vətənpərvərlik borcudur. Qədim Bərdənin timsalında onu deyə bilərəm ki, Vətənimizin zəngin və şanlı tarixi ilə ancaq qürur duymaq olar”.

**mayor Anar Əhmədov**

# Hərbi hissədə vətənpərvərlik mövzusunda maarifləndirici tədbir keçirilib

**Sentyabrın 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Daxili Qoşunların 16077 saylı hərbi hissəsində vətənpərvərlik mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinin əməkdaşları və hərbi hissənin şəxsi heyəti iştirak edib.**

Tədbiri giriş sözü ilə açan hərbi hissə komandiri polkovnik Zəfər Əliyev qonaqları salamlayaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin hərbi hissələrdə vətənpərvərlik mövzusunda təşkil etdiyi maarifləndirmə tədbirlərini yüksək qiymətləndirib. O, müstəqilliyə aparan yolun çətin və keşməkeşli olduğunu bildirərək, bu yolda Daxili Qoşunların da çoxlu sayda şəhid verdiyini qeyd edib. Hərbi hissə komandiri Azərbaycan əsgərinin gücündən, Vətəninə, xalqına, üçrəngli bayrağına olan sevgisindən, sədaqətindən danışıb, Daxili Qoşunların şəxsi heyətinin yüksək döyüş əzmini, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı hər zaman doğruldacağına əminliyini və torpaqlarımızın azad olunması üçün hərbi qulluqçularımızın canından keçməyə hazır olduğunu vurğulayıb.





**Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev hər bir xalqın gələcəyə olan ümidlərinin gənclər olduğunu və buna görə də gənclərin vətənpərvər ruhda yetişdirilməsinin olduqca vacibliyini bildirib. Şöbə müdiri vətənpərvərliyin insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaratdığını, aparılan mübarizədə inam hissini gücləndirdiyini vurğulayıb. O, çıxışında dini radikalizm məsələsinə toxunaraq qeyd edib ki, dini radikalizmin yaranmasının əsas səbəbi dini məsələlərə siyasi don geyindirilməsi və dini bilikləri az olan insanlara təsir etməklə onların öz milli-mənəvi dəyərlərindən uzaqlaşdırılmasıdır. Şöbə müdiri hər bir şəxsin sərbəst şəkildə ibadət etmək, dini ayinləri icra etmək hüquqlarının olduğunu, ancaq bu hüquqlardan suiistifadəyə qanunla yol verilmədiyini vurğulayaraq, gəncləri radikal dini təsirlərdən uzaq durmağa səsləyib.**

**Dini radikalizmə qarşı mübarizədə dini maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışan N.Əfəndiyev qeyd edib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə milli-mənəvi və dini dəyərlərin qorunması istiqamətində dövlət siyasəti həyata keçirilir. Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun, eyni zamanda, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması bu siyasətin bariz nümunəsidir.**

Tədbirdə çıxış edən DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin əməkdaşı Fərid Vaqifli Azərbaycan xalqının tarix boyu başına gətirilən müsibətlərdən danışaraq, müstəqilliyə gedən yolda ağır itkilər verdiyimizi, ancaq heç zaman mübarizə ruhumuzu itirmədiyimizi diqqətə çatdırıb. O, həmçinin, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda da təhlükəli bir dövr yarandığını, lakin Ulu Öndər Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində ölkəmizdə daxili sabitliyin qorunub saxlanıldığını, cəmiyyətimizdə birlik və həmrəyliyin möhkəmləndiyini, bütün sahələrdə sabit, ahəngdar inkişafa nail olunduğunu vurğulayıb. Bildirib ki, bu gün Azərbaycandakı dövlət-din münasibətləri modeli, multikulturalizm, tolerantlıq dünyaya bir nümunədir.

**Sonda hərbi hissələrdə bu cür maarifləndirici tədbirlərin keçirilməsinin vacibliyi bir daha vurğulanıb, hərbi qulluqçuların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.**

**baş leytenant Xədicə Hacızadə**

*Şəhidlərimiz*

# Mərd oğul qoymaz sönsün ana yurdun ocağı...

20 il bundan əvvəl - 1999-cu ildə “Hərbi Nəşriyyat”da Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının “Əsgər” qəzeti redaksiyasının hazırladığı “Oğullar verir ki, can, yaşasın Azərbaycan” kitabı çap olunub. Bu kitab Daxili Qoşunların respublikamızın ərazi bütövlüyü uğrunda döyüş yolu və şəhid hərbi qulluqçuları haqqında rəsmi mənbə olan ilk nəşrdir. Ötən 20 ildə şəhidlərimizlə bağlı araşdırmalarımız davam etdirilib, yeni məqalələr yazılaraq çap və elektron mətbuat, habelə sosial şəbəkələr vasitəsilə ictimaiyyətə təqdim olunub, qoşunlarda bu mövzuya dair zəngin informasiya bazası formalaşıb. Bütün bunlara baxmayaraq, bu istiqamətdə görülən işlərin yekunlaşması hələ qarşıdadır.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının şəhid hərbi qulluqçularından biri olan çavuş Piriyev Musa Gülbaba oğlu şərəfli döyüş yolu keçib. Onun barədə məlumatların toplanmasına döyüşçü yoldaşı olmuş, Daxili Qoşunların veteranı, ehtiyatda olan baş gizir Hidayət Salmanov köməklik edib. Hidayətlə birgə İsmayıllı rayonunun Tircan kəndinə gedərək şəhidin ailəsi ilə görüşmüşük. Bu yurdun qeyrətli oğullarından biri kimi M.Piriyevi şəhidlik zirvəsinə aparan yolun maraqlı məqamları var.

O, 4 mart 1969-cu ildə İsmayıllı rayonunun Tircan kəndində dünyaya göz açıb. Gülbaba Piriyev (2019-cu ilin may ayında vəfat edib – Y.A.) və Şahsənəm Piriyevanın qurduğu ailənin ikinci övladı olan Musa valideynlərinə, böyük qardaşı və iki bacısına münasibətdə həmişə mehribanlığı, qayğıkeşliyi ilə seçilib. Özünəməxsus adət-ənənələri olan Tircan kəndində böyüyərək



uşaq yaşlarından doğma torpağa qəlbən bağlanıb, ədəb-ərkanlı, zəhmətkeş, cəsarətli, ləyaqətli gənc kimi hörmət qazanıb.

M.Piriyev 1986-cı ildə Tircan kənd orta ümumtəhsil məktəbini bitirib. Orta məktəbdə onun vətənpərvər ruhda formalaşmasında müəllimlərinin də rolu və əməyi danılmazdır.

1986-cı ildə M.Piriyev Bakıda Politexnik Texnikumuna qəbul olunub. Burada “İnşaat materialları sənayesinin maşın və avadanlıqları” ixtisası üzrə təhsil alıb. Texnikumda oxuduğu vaxt sovet ordusu sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. 1987-1989-cu illərdə Rusiya Federasiyasının Krasnodar diyarında SSRİ Müdafiə Nazirliyinin hərbi aviasiya təyinatlı hərbi hissəsində hərbi xidmət keçib. Hərbi xidmət zamanı bir sıra fərqlənmə nişanları ilə təltif olunub.

Ordu sıralarından tərxis olunaraq Vətənə qayıtdıqdan sonra Musa texnikumda təhsilini davam etdirib və 1991-ci ildə buranı texnik-mexanik peşəsinə yiyələnərək bitirib.

1991-1992-ci illərdə M.Piriyev paytaxtın Suraxanı rayonunda Mənzil-Kommunal Təsərrüfat Birliyi nəzdindəki mənzil-istismar kontorlarından birində texnik işləyib.

Həmin dövrdə respublikamızda vəziyyət çox ağır idi. Ermənistanın hərbi təcavüzü nəticəsində bir sıra şəhər və rayonlarımız işğal olunmuşdu. Doğma yurdundan didərgin düşən məcburi köçkünlərin sayı artırdı. Elə bir rayon yox idi ki, oraya ön cəbhədən şəhid tabutları gəlməsin. Bütün bu acı gerçəklik Musanı da dərindən sarsıdıb. O, hərbi xidmət təcrübəsi olan gənc kimi bu durumda öz yerini Vətənin müdafiəçiləri sırasında görərək, düşmənlə vuruşmağa can atırdı.

O vaxt Daxili Qoşunların şəxsi heyəti erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edirdi. Ön cəbhənin müxtəlif istiqamətlərində hərbi qulluqçularımız yerləşdirilmişdi.

Daxili Qoşunların Arxivindən verilən 19.09.2019-cu il tarixli müvafiq arayışda göstərilib ki, M.Piriyev 1992-ci ilin noyabr ayında ehtiyatdan çağırılmaqla Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub, ona “çavuş” hərbi rütbəsi verilib.

5456 saylı hərbi hissədə (indiki 99713 saylı hərbi hissə - Y.A.) hərbi xidmətə başlayan Musa 1993-cü ilin yanvar ayında buradan Füzuli rayonuna ezam edilib. Füzuli rayonu ərazisində torpaqlarımızın müdafiəsində dayanıb, döyüş sınaqlarından alnıaçıq çıxıb.

99713 saylı hərbi hissə komandirinin 15.03.1993-cü il tarixli müvafiq əmri ilə ça-



vuş M.Piriyevə maddi-texniki təchizat bölüyündə atıcı silahların təmiri ustası vəzifəsi həvalə olunub.

1993-cü ilin mart ayında Ağdam-Ağdərə döyüş bölgəsində döyüşlərdə iştirak edib. Düşmənin hücumlarının qarşısının alınması üçün döyüşçü yoldaşları ilə birgə qətiyyətlə vuruşub. Döyüşçü yoldaşları Hidayət Salmanov və Füzuli Tahirov (Daxili Qoşunların veteranı, müharibə əlilidir – Y.A.) onu cəsur, hərbi anda sadiq, vətənpərvər hərbi qulluqçu kimi xatırlayırlar. Musa döyüş tapşırıqlarını nəyin bahasına olursa-olsun, yerinə yetirmək üçün özünü təhlükəyə atmaqdan çəkinmirdi, düşmənə nifrəti və qəzəbi ona mənəvi güc verirdi.

1993-cü il martın 27-də Musa Ağdərə cəbhəsindəki “Qlobus” adlanan yüksəklik ətrafında şiddətli döyüş zamanı düşmən tankından atılan mərminin partlaması nəticəsində ağır yaralanıb. Döyüşçü yoldaşları onu döyüş meydanından çıxarıblar. H.Salmanov ona zəruri ilk tibbi yardım göstərib. Musa ön cəbhədən Bakıya aparılıb və burada 28-30.03.1993-cü il tarixlərdə xəstəxanada həkimlər onun həyatını xilas etməyə çalışıblar. Ancaq bu mümkün olmayıb (stasionar tibb kartından çıxarışda bu diaqnoz qeyd olunub: “sağ bud sümüyünün orta üçdə bir nahiyəsinin açıq infeksiyalaşmış sınığı, qazlı qanqren (anaerob infeksiya) – Y.A.). Beləliklə, martın 30-da çavuş M.Piriyev 24 yaşında xəstəxanada dünyasını dəyişib.

27.04.1993-cü il tarixli ölüm haqqında şəhadətnamədə şəhidin ölüm səbəbi kimi odlu silah yaralanmasından yaranan qazlı qanqrenin anaerob infeksiyasının intoksikasiyası nəticəsində ürək-damar fəaliyyətinin pozulması göstərilib.

Çavuş M.Piriyev doğma kəndində dəfn olunub. Tircan kənd orta məktəbi şəhidin adını daşıyır. Orta məktəbdə şəhidin büstü qoyulub, xatirə guşəsi yaradılıb.

1996-cı ildə Bakıdakı “Vətən” nəşriyyatında Nəcəf Nazim və Fərman Zakirin müəllifi olduqları “Əbədi yaşayanlar. İsmayıllı şəhidləri” kitabı işıq üzü görüb. Kitabda şəhid hərbi qulluqçumuz barədə məlumat verilib.

Musanın babası 1941-1945-ci illərdə faşistlərə qarşı müharibədə həlak olub. O, babasının xatirəsini həmişə uca tutub və onun nəvəsi olması ilə qürur duyub. Taleyi döyüş ruhlu bu gənci də qürur zirvəsinə ucaldıb.

Ailəsi ilə son görüşdə anasından soruşub ki, hərbi forma ona yaraşırmı, bu formanı çox sevdiyini deyib.

Belə oğulları xalqımız heç vaxt unutmayacaq.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# Xüsusi təyinatlı dəstələrin snayperləri arasında yarış keçirilib

"2019-cu ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na müvafiq, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının "Xüsusi təyinatlı dəstələrin snayperləri arasında "Ən yaxşı snayper" adı uğrunda yarışın təşkili və keçirilməsi haqqında" əmrinin tələblərinə əsasən, sentyabrın 17-də Daxili Qoşunların Təlim





mərkəzində hərbi hissələrin xüsusi təyinatlı dəstələrinin snayperlərinin iştirakı ilə yarış keçirilib.

Xüsusi təyinatlı dəstələrin snayperlərinin peşə hazırlığının yüksəldilməsi, onlar arasında sağlam rəqabətin yaradılması, ən yaxşı snayperi müəyyən etmək məqsədilə təşkil olunmuş bu yarışda, ümumilikdə, 38 nəfər hərbi qulluqçu iştirak edib.

Yarışın planına uyğun olaraq, snayperlər xüsusi təlim atış çalışmaları üzrə praktiki atışlar icra edib, atəş hazırlığı üzrə müvafiq normativləri yerinə yetiriblər. Nəzəri biliyin yoxlanılması məqsədilə snayper hazırlığı üzrə məqbullar qəbul edilib və təcrübə mübadiləsi aparılıb.

Polkovnik-leytenant Tural Novruzov yarışın təşkil olunub keçirilməsi barədə məlumat verərək bildirdi ki, heç bir pozuntu halına yol verilməyib. Yarış iştirakçıları yüksək mənəvi-psixoloji hazırlıq, fiziki dözümlülük, hərbi intizam və birincilik uğrunda mübarizə əzmi göstəriblər. Snayperlər arasında gizir Şamil Əhmədov (99713 saylı hərbi hissə), kiçik çavuş Zahid Əhədzadə (16073 saylı hərbi hissə) və kiçik çavuş Təbriz Məmmədov (16075 saylı hərbi hissə) sərrastlıq, peşəkarlıq nümayiş etdirərək, atış kursunun tələblərini dəqiq yerinə yetirməklə, yüksək nəticələrə nail olublar.

Komandalar üzrə 99713 saylı hərbi hissə 1-ci yer, 16073 saylı hərbi hissə 2-ci yer, 16075 saylı hərbi hissə isə 3-cü yerə layiq görülüblər.

Sonda yüksək nəticə əldə edən bölmə "kubok"la, fərdi birincilik üzrə fərqlənmiş hərbi qulluqçular isə müvafiq dərəcəli "diplom"la mükafatlandırılıblar.

Polkovnik-leytenant T.Novruzov həmçinin vurğuladı ki, yarış iştirakçılarının yerləşdirilməsi, qidalanması, təlim yerlərinin hazırlanması, silahların, təchizatın, döyüş sursatlarının ayrılması, şəxsi heyətin və maddi vəsaitlərin daşınması müvafiq təlimatların tələblərinə uyğun həyata keçirilib, yarışların keçirilməsi müddətində daxili xidmət və tibbi təminat təşkil edilib.

Bu yarışlar snayperlərin nəzəri və praktiki cəhətdən təkmilləşməsində, atəş hazırlığının daha da yüksəldilməsində müstəsna rol oynayır.

**gizir Ariz Aslanov**

## İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL (OMBUDSMAN) APARATINDA SEKTOR MÜDİRİ HƏRBİ HİSSƏMİZLƏ TANIŞ OLUB



**2019-cu il üçün müəyyən edilmiş birgə tədbirlər planına əsasən, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatında hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və həmin sektorun böyük məsləhətçisi Murad Babayev sentyabrın 12-də 16076 saylı hərbi hissədə olublar.**

İlk olaraq hərbi hissənin ərazisi ilə tanış olan rəsmi qonaqlar daha sonra hissənin əsgər yeməkxanasına, əsgər kazarmasına, əsgər hamamı və anbarlara ümumi baxış keçirib, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə görüşüblər.

Ombudsmanın nümayəndələri şəxsi heyətə insan hüquqları, o cümlədən, hərbi qulluqçuların hüquqları, Ombudsmanın bu istiqamətdə fəaliyyəti barədə məlumat verib, mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda söhbətlər aparıblar. Görüşün keçirilməsində əsas məqsəd İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının hərbi qulluqçuların hüquq və azadlıqlarının qorunub saxlanılması sahəsində həyata keçirdiyi fəaliyyət haqqında şəxsi heyətə ətraflı məlumat vermək, hərbi qulluqçuların hüquqi baxımdan maarifləndirilməsini təmin etmək və onları maraqlandıran sualları cavablandırmaq olub.

**Qeyd edək ki, tədbirlər planına əsasən, ilin sonunadək Daxili Qoşunların müxtəlif hərbi hissələrində Ombudsman Aparatı əməkdaşlarının şəxsi heyətlə görüşlər keçirməsi nəzərdə tutulur.**

**baş leytenant Nigar Ağayeva**

*İdman*

# Daxili Qoşunların birinciliyi uğrunda sərbəst güləş üzrə yarış keçirilib



"2019-cu ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, sentyabrın 21-dən 22-dək 99713 saylı hərbi hissədə Daxili Qoşunların birinciliyi uğrunda sərbəst güləş üzrə yarış keçirilib.

Yarışın təşkili və keçirilməsi üçün təyin olunmuş hakimlər kollegiyasına baş hakim - polkovnik Vurğun Abbasov, katib - mayor Mehman Nəsibov, döşək üzrə hakim - mayor Elşad Allahverdiyev və yarışın həkimi - tibb xidməti polkovnik-leytenantı Urfan Mustafayev daxil edilib.

Yarışda Ali Hərbi Məktəbdən, 99713, 67987, 16075, 25031 və 16076 saylı hərbi hissələrdən 6 komanda üzrə 42 nəfər hərbi qulluqçu iştirak edib.

Yarışın katibi mayor M.Nəsibov qeyd edib ki, bu yarışda əvvəlkilərə nisbətən daha çox rəqabət, prinsipiallıq və qətiyyət var idi. Hər kəs birincilik üçün əzmlə mübarizə aparırdı.

Şəxsi və komanda birinciliyi uğrunda keçirilən yarışın nəticələri aşağıdakı kimi olub:

**60 kq çəki dərəcəsində**

I yer - kursant Sənan Əlizadə (AHM);
II yer - əsgər Samir Talıbzadə (16075 saylı hərbi hissə).

**66 kq çəki dərəcəsində**

I yer - əsgər Nicat Əliyev (99713 saylı hərbi hissə);
II yer - çavuş Ruslan Əmrahlı (16075 saylı hərbi hissə);
III yer - əsgər Röyal Calalov (25031 saylı hərbi hissə).

**74 kq çəki dərəcəsində**

I yer - MAXE çavuş Elvin Dövlətov (16076 saylı hərbi hissə);
II yer - baş leytenant Nadir Şərifov (16075 saylı hərbi hissə);
III yer - MAXE çavuş Məhəmməd Ağalarov (99713 saylı hərbi hissə).

**84 kq çəki dərəcəsində**

I yer - MAXE çavuş Əli Bayramov (99713 saylı hərbi hissə);
II yer - əsgər Məhəmməd Ağazadə (16076 saylı hərbi hissə);
III yer - kursant Cəfərsadiq Ağazadə (AHM).

**96 kq çəki dərəcəsində**

I yer - MAXE çavuş Tahir Əmraslanov (99713 saylı hərbi hissə);
II yer - MAXE əsgər Əmrah Əmrahov (67987 saylı hərbi hissə).

**120 kq çəkidən yuxarı dərəcədə**

I yer - gizir Coşqun İsmayılzadə (16075 saylı hərbi hissə).

Komanda birinciliyi üzrə 16075 saylı hərbi hissə 23 xalla ilk pillədə qərarlaşmağı bacarıb. 99713 və 16076 saylı hərbi hissələr isə 15 və 10 xal qazanmaqla müvafiq olaraq 2-ci və 3-cü yerləri bölüşüblər.

**Sonda yüksək nəticə əldə edən komanda "kubok"la, fərdi birincilik üzrə fərqlənmiş hərbi qulluqçular "diplom"la mükafatlandırılıblar.**

**gizir Ariz Aslanov**

*NÜMUNƏVİ XİDMƏT*

## SƏMİMİ, TƏVAZÖKAR VƏ İNTİZAMLI HƏRBİ QULLUQÇUMUZ

17071 saylı hərbi hissənin hərbi qulluqçusu olan baş çavuş Ramiz Ələsgərov nümunəvi xidməti ilə fərqlənir. O, 1983-cü il iyulun 3-də qədim yurd yerlərimizdən olan Göyçə mahalının Ağbulaq kəndində anadan olub. Orta təhsillidir. Hələ uşaq ikən, 9-10 yaşlarında idmanın güləş növü ilə məşğul olub. Həvəskar kimi olsa da, idmana marağı bu gün də özünü büruzə verir. 2001-2002-ci illərdə Sərhəd Qoşunlarının "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Müddətdən artıq həqiqi hərbi xidmətə 2007-ci ildən başlayıb. Elə həmin vaxtdan bu günə kimi Daxili Qoşunların sıralarındadır. Özünün dediyinə görə, hələ uşaq ikən hərbçi olmaq həvəsilə yaşayıb. Orta məktəbi bitirdikdən sonra artıq öz yolunu seçən Ramiz taleyini hərbi xidmətlə bağlamağı yəqinləşdirmişdi. Buna görə də Daxili Qoşunlara gəlişi heç də təsadüfi olmayıb.



Vətənpərvərlik əqidəsi hər şeydən üstün olan baş çavuş R.Ələsgərov bu gün hərbi xidmətdə əzmkarlıq, dözümlülük göstərərək, üzərinə düşən tapşırıqları layiqincə yerinə yetirir. Belə ki, ayıq-sayıqlığı ilə digərlərindən seçilir, istənilən vəziyyətdə qarşıya qoyula biləcək döyüş tapşırığının icrasına hazırdır. O, təlimdə də çalışqandır və müsbət nailiyyətlər əldə edir. Hərbi yoldaşlıq ənənələrinin qorunmasında əlindən gələni edir, nizam-intizamı və tərbiyəsi ilə hərbi qulluqçulara örnəkdir.

Xüsusi təyinatlı dəstə komandirinin vəzifələrini icra edən kapitan Elçin Babayev tərəfindən müsbət xarakterizə olunan hərbi qulluqçu hazırda xüsusi təyinatlı dəstədə yarımqrup komandiri vəzifəsindədir. Artıq 12 ildir ki, hərbi xidmətdə olan baş çavuş R.Ələsgərovu tanıyan yoldaşları da bu illər ərzində onun heç dəyişmədiyini, ilk gündə olduğu kimi, öz xidmətinə məsuliyyətlə, ciddi yanaşdığını dedilər.

Mətbuat xidməti olaraq biz də, öz növbəmizdə, hərbi qulluqçumuza layiqli hərbi xidmətində yeni uğurlar arzulayırıq.

**baş leytenant Nigar Ağayeva**

*Sağlamlıq*

# "Təbii aspirin"

Moruq çox faydalı giləmeyvədir və əsl təbii dərmandır. Bu giləmeyvə C vitamini ilə olduqca zəngindir.

Bundan əlavə, tərkibində A, PP, E, B qrupu vitaminləri, kalium, kalsium, fosfor, mis, maqnezium, dəmir, selen kimi faydalı minerallar, efir yağları var. Müxtəlif turşulərla (salisil, alma, limon turşusu) zəngin moruğun tərkibində antosian maddəsi var ki, bu maddə damar və kapilyarları möhkəmləndirir, onların elastikliyini artırır. Orqanizmdə aterosklerozun inkişafını ləngidir.

Təzə moruq baş ağrıları zamanı çox yaxşı kömək edir, həmçinin, oynaq ağrılarının dərmanıdır ki, bu da giləmeyvənin tərkibində salisil turşusunun olmağı ilə izah olunur.

Ürək-damar sistemi üçün faydalı olan moruq yüksək təzyiqi aşağı salır, qanın tərkibini yaxşılaşdırır. Pektinlərlə zəngin olduğu üçün mədə-bağırsaq sisteminə də müsbət təsir edir, bağırsaqları təmizləyir, onlara antiseptik təsir edir, həzmi yaxşılaşdırır, iştahanı artırır.

Dadlı giləmeyvə soyuqdəymə xəstəlik-



ləri zamanı çox yaxşı müalicəvi təsir edir - hərarəti salır, xəstəliyin simptomlarını azaldır, tərlədir, immuniteti möhkəmləndirir. Məhz bu səbəbdən moruğu "təbii aspirin" adlandırırlar. Soyuqdəymə zamanı təzə moruğu suda çay kimi dəmləmək, moruq kompotundan istifadə etmək faydalı olur.

## HƏRBİ XƏBƏRLƏR

*-YENİLİKLƏR -*

### "Mbombe 4" zirehli maşını partlayışa davamlılıq sertifikatı alıb

Mərkəzi ofisi Cənubi Afrika Respublikasında yerləşən "Paramount Group" şirkətinin 4×4 təkər formuluna malik "Mbombe 4" zirehli maşını partlayış testlərini keçdiyini təsdiqləyən sertifikatı alıb.

Partlayış testləri ən yüksək beynəlxalq spesifikasiyalara uyğun olaraq həyata keçirilib. "Mbombe 4"ün təkərinin və gövdəsinin altında 10 kq, yanda 5 metr məsafədə 50 kiloqram TNT ekvivalentin-



də partlayışlar imitasiya edilib.

"Mbombe 4"ün sürəti 140 km /saat, gediş ehtiyatı 800 km təşkil edir. Maşında müstəqil asqı, arxa hissədə heyətin rahat minib düşməsi üçün qatlanan, rampa tipli qapı təbiq olunub.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

4_Layout 1 27.09.2019 12:39 Page 1